# İNSANLARIN ƏN DAHISI

<"xml encoding="UTF-8?>

İNSANLARIN ƏN DAHISI

Bismillahir rəhmanir-rəhim.

Amerikalı alim Maykl Xartın "tarixdə 100 insan" adlı kitabı çıxmışdır. Bəşəriyyət tarixində 100 ən görkəmli insanın qeyd olunmasının özü-özlüyündə maraqlı və diqqətəlayiqdir. Amma dünya mətbuatında ən böyük səs-küyə səbəb olan xəbər budur ki, yer kürəsində ən dahi adam kim hesab edilir? Bu, necə aydın olmuşdur? Maykl Xartın kompyterdə apardığı axtarışların əsasları bundan ibarət olmuşdur: alınan məlumatlar istedadlı təşkilatçı, fəaliyyət göstərdiyi sahədə müvəffəqiyyət qazanmış, insanlıq tarixində məşhurlaşmış adamlar haqqında idi. Kompüter riyazi analizlər yolu ilə həmin məlumatları hesabladı və tarixdə daha çox iz qoyan 100 adamın adını göstərdi.

Əlbəttə, bu, çox zəhmət və səbr tələb edən işə aylar sərf edildi. Bəs ən yaxşıların yaxşısı kim oldu?

Xart həyacanla lazımı düyməni basır və ekranda bu yazı görsənir: Məhəmməd Peyğəmbər (s)

Bu qərar Xartın həmkarlarını qane etmir və onlar eksperimenti təkraralamağı təkid edirlər. Xart çiyinlərini çəkərək kompüteri göstərir, yəni mənim buna dəxlim yoxdur. Bununla belə özü də kompüterin cavabından narazı halda eksperimenti bir neçə dəfə təkrar edir. Maşın isə inadla eyni yazını göstərir: Məhəmməd peyğəmbər (s) "İlahi möcüzələr" kitabından.